**TƏHSİL SEKTORUNUN İNKİŞAFI ÜZRƏ İKİNCİ LAYİHƏ**

**KREDİT N- 4394 AZ**

**SEÇİLMİŞ PİLOT MƏKTƏBİN TƏMİRİNİN LAYİHƏ-SMETA SƏNƏDLƏRİNİN HAZIRLANMASI ÜÇÜN MƏSLƏHƏTÇİ ŞİRKƏTİN SEÇİLMƏSİNƏ DAİR**

**MARAĞIN İFADƏSİ ÜÇÜN DƏVƏT**

Azərbaycan Hökuməti Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihənin xərclərini ödəmək məqsədilə Dünya Bankından maliyyə vəsaiti almışdır. Həmin vəsaitin bir hissəsinin məsləhətçi xidmətlərinə sərf edilməsi nəzərdə tutulmuşdur.

**Xidmətlərin məqsədi:** Seçilmiş pilot məktəblərin təmirnin layihə-smeta sənədlərinin hazırlanması. Təhsil Nazirliyi müvafiq şirkətləri qeyd olunan xidmətin həyata keçirilməsi üçün maraqlarını bildirməyə dəvət edir.

**İcraçı təşkilat üçün ixtisas tələbləri:**

1) Mülki binaların təmir-tikintisinin layihə-smeta sənədlərinin hazırlanması sahəsində ən azı 3 illik peşəkar iş təcrübəsinə malik olmalıdır;

2) Təhsil-tədris müəssisələrinin təmir tikintisinin layihə-smeta sənədlərinin hazırlanması sahəsində iş təcrübəsi;

3) Məsləhətçi müvafiq sahələr üzrə ixtisaslaşmış əsas heyətə malik olmalıdır;

4) Beynəlxalq qurumların maliyyələşdirdiyi layihələr üzrə təcrübəsi olanlara üstünlük veriləcəkdir;

5) Texniki Tapşırıqda nəzərdə tutulmuş işlərin həyata keçirilməsi üçün qalib şirkətə müqavilə təltif edilməzdən əvvəl Azərbaycan qanunvericiliyinə uyğun olaraq müvafiq lisenziya tələb olunacaqdır.

**İcra müddəti:** iyun 2010-dekabr 2011

Xidmətlərə maraq göstərən təşkilatlar müvafiq ixtisas tələblərinə cavab verdiklərini təsdiq edən aşağıdakı məlumatları və sənədləri **2010-cu il, aprelin 16-na qədər** aşağıdakı ünvana təqdim etməlidirlər:

- müraciət məktubu;
- yerinə yetirilmiş müvafiq xidmətlərin təsviri;

- müvafiq bacarıq və təcrübəyə malik olan heyət haqqında məlumat;
- nizamnamə.

Təşkilat Dünya Bankının "Borcalanlar tərəfindən Məsləhətçilərin seçilməsi və İşə götürülməsi Qaydaları"na müvafiq olaraq *Keyfiyyət və Qiymətə Əsaslanmış Seçim* metodu üzrə seçiləcəkdir.

Əlavə məlumatları iş günləri ərzində saat 09.00-dan 18.00-dək aşağıdakı ünvandan əldə etmək mümkündür:


**Azərbaycan Respublikasının Təhsil Nazirliyi,**

**Təhsil Sektorunun İnkişafı Layihəsinin Əlaqələndirmə Qrupu,**

**AZ1008, Bakı şəhəri, Xətai prospekti-49.**

**Əlaqələndirici şəxs: Elvin Rüstəmov**

**Əlaqə telefonları: 496-37-59, 496-37-60; faks: 496-93-68.**

**Email: erustamov@ultel.net**